


**Əvvəllər Mingəçevirdə bir neçə dəfə olsam da şəhəri bu qədər gəzməmiş, buradakı yeniliklərlə bu dərəcədə tanış olmamışdım. İndi bu sətirləri yazarkən istər-istəməz respublikamızın bu dilbər güşəsində seyr edib zövq aldığım gözəllikləri gözlərim önünə gətirir, şəhər mədəniyyət və turizm şöbəsinin müdiri Tahir Yusifli ilə səmimi görüşümüzü xatırlayıram.**

*<u>Əslində Mingəçeviri gəzib-dolaşmaq təşəbbüsü də Tahir müəllimdən gəldi. Uzun illərin həsrətli dostları kimi çox mehriban və səmimi şəkildə görüşdükdən sonra görülən işlərdən, həyata keçirilən möhtəşəm layihələrdən danışdı:</u>*

# Gözəllikdən doymur ürək

- Bəlkə haqqında söhbət açdığım tikililər, təmir-bərpa işlərilə yerində tanış olasınız...

- Sanki ürəyimi oxudunuz, Mingəçevirdə olasan, bu gözəl şəhəri gəzməyəsən - bu bir insafsızlıq olardı...

Beləcə şəhəri dolaşdıq. Tahir müəllim hər bir tikilinin yanında maşınını saxlayır, ətraflı məlumat verir, sonradan başqa küçəyə üz tuturduq.

- Siz Bakıdan gəlmisiniz. Respublikada gedən işlərdən daha geniş məlumatınız var. Xüsusi qürur hissi ilə qeyd etməliyəm ki, Azərbaycanda obyektiv gerçəkliyə çevrilmiş sabitlik və ahəngdar inkişaf Mingəçevirin də gündəlik həyat tərzinə çevrilmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş strategiya doğma şəhərimizdə davamlı olaraq həyata keçirilmiş, şəhərin sosial-iqtisadi inkişafı təmin olunmuş, əhalinin rifah halı yüksəlmişdir. Bütün bunlar möhtərəm prezidentimiz cənab İlham Əliyevin Mingəçevir şəhərinə 3 mart 2009-cu il tarixli səfəri zaman qeyd olunmuş, Mingəçevirdə aparılan abadlıq və quruculuq işlərinə yüksək qiymət verilmişdir. Hazırda Mingəçevir inkişaf edən respublikamızın dinamik bir hissəsinə, Azərbaycan regionlarının mədəniyyət nümunələrini özündə birləşdirən və onların inkişafına şərait yaradan bir mərkəzə çevrilmişdir.




Bayram şənliyi

Az bir müddətdə Heydər Əliyev muzeyinin yumşaq dam örtüyü müasir metal təbəqələrlə əvəz edilmiş, muzeyin daxili tərtibatı köklü şəkildə dəyişdirilərək qırmızı ağac materialından yığılmış, işıqlandırma cihazları, çılçıraqlar ən yüksək tələblərə cavab verəcək səviyyəyə çatdırılmış, muzeyin eksponatları tamamilə yeniləşdirilmiş və zənginləşdirilmişdir. Muzeyin ətrafı yüksək zövqlə yenidən tərtib olunmuşdur. Eyni zamanda Heydər Əliyev adına mədəniyyət və istirahət parkı, "İlk qurucular" parkı, şəhərin tarixində analoqu olmayan 400 yerlik yay estrada səhnəsi az bir zamanda istifadəyə verilmişdir. Mingəçevir Dövlət Dram Teatrının binasının əsaslı təmiri və Heydər Əliyev Mərkəzinin tikintisi başlanmışdır. Mədəniyyət işlərinə başlanmışdır. Mədəniyyət işçiləri də bütün bu işlərin müqabilində fəaliyyətlərini gücləndirməyə çalışmış, müəssisələrimizin maddi-texniki bazasının yeniləşdirilməsi və gücləndirilməsi istiqamətində addımlar atılmışdır. Həyata keçirilən tədbirlər kabinetlərdən yaşayış məhəllələrinə, parklara, əhalinin kütləvi istirahət yerlərinə yönəldilmişdir.

Yay mövsümü başlayandan "Sahil" parkında, Heydər Əliyev adına park və Yay estrada səhnəsi istifadəyə verilən gündən işə bu gözəl istirahət məkanlarında, Energetiklər qəsəbəsində əhalinin asudə vaxtının səmərəli təşkil olunması üçün 200-dən artıq konsert, diskoteka, əyləncəli proqramlar, müsabiqələr və yubiley tədbirləri keçirilmişdir. Mədəniyyət müəssisələri Gəncə və Astara şəhərlərində keçirilən musiqi festivallarında və rəsm sərgilərində iştirak etmişlər. Ötən il xatirimizdə yubileylər ili kimi qalmışdır. Ümummilli lider Heydər Əliyevin 85 illik yubileyi, Azərbaycan Cümhuriyyətinin və Azərbaycan Polisinin 90, doğma şəhərimizin 60 illiyi tədbirlərində mədəniyyət işçilərinin yük-


Şəhər tarix muzeyi


Heydər Əliyev parkı

fəallığı daim hiss olunmuşdur. 2008-ci il Mingəçevirin mədəniyyət işçiləri üçün daha bir əlamətdar hadisə ilə də yadda qalmışdır. Bu da möhtərəm prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə Mingəçevirin 3 nəfər mədəniyyət işçisinə fəxri ad verilməsi ilə bağlıdır. Bu Mingəçevirə və şəhərimizin bütün mədəniyyət işçilərinə verilən yüksək qiymətdir.

Yubiley və tarixi əlamətdar günlərin təntənəli surətdə qeyd olunması ilə bağlı cari ildə də çoxsaylı tədbirlər həyata keçirilmişdir. Bu münasibətlə ədəbi-bədii gecələr, konsertlər, disputlar, sərgilər, festivallar və müsabiqələr təşkil olunmuşdur.

Tədbirlərin yüksək səviyyədə keçirilməsində M.P.Vaqif adına mərkəzi kitabxana, Ü.Hacıbəyov adına 1 saylı uşaq musiqi məktəbi, tarix muzeyi, N.Nərimanov adına, S.Vurğun adına, A.Niftəliyev adına mədəniyyət evləri, şəhər klubu və MKS xüsusilə fərqlənmişlər.

MKS və tarix muzeylərinin fondlarının zənginləşdirilməsi istiqamətində də xeyli iş görülmüşdür. Nəticədə kitab fondumuz 330 min nüsxəyə, muzey eksponatlarının sayı isə 14500-ə çatdırılmışdır.

Təqdirəlayiq cəhətlərdən biri də odur ki, incəsənət və musiqi məktəblərində, muzey və rəsm qalereyasında, kitabxanalarda, klub və mədəniyyət evlərində keçirilən tədbirlərlə bağlı televiziya və radioda rəngarəng verilişlər yayımlanır, habelə qəzet və jurnallarda maraqlı məqalələr dərc olunur, qabaqcıl təcrübə təbliğ edilir.

Şəhərdə istedadların aşkara çıxarılması, onların gələcək inkişafı qayğısına qalınması sahəsində də lazımi tədbirlər görülür.

Mingəçevirin böyük turizm potensialına malik olması barədə məlumatlar respublikamızın sərhədlərini çoxdan aşmışdır. Hal-hazırda inşa edilən mehmanxanalar silsiləsi tezliklə şəhərimizin bu imkanlarından dünyanın hər yerindən gələn insanların istifadə etməsi üçün geniş imkanlar verəcəkdir....

Söhbət zamanı Tahir müəllim Şəhər İcra Hakimiyyətinin başçısı Mübariz Ağayevin mədəniyyətə göstərdiyi qayğı və diqqət barədə dönə-dönə söz açdı. Bildirdi ki, Mingəçevirin müasir bir şəhərə çevrilməsi, bu qədər quruculuq işləri aparılması məhz hörmətli icra başçımızın gərgin əməyinin, yüksək təşkilatçılıq bacarığının təzahürüdür.

Sonda Tahir müəllimin tərcümeyi-halı ilə maraqlandıq. Gülümsündü:

- Bunlar nəyə lazımdır?! Mən vəzifə borcumu yerinə yetirirəm. Zəhməti qiymətləndirilsi o qədər mədəniyyət işçimiz var ki...

Bu cavabı ilə Tahir Əzizli özündə yaşatdığı neçə-neçə insani keyfiyyəti üzə çıxarmış oldu.

Onun mehriban və qayğıkeş, sadə və zəhmətkeş olduğunu bilirdik.

Yüksək dünyagörüşünə, savada və təvazökarlığa malik olduğunu da gördükdə bir ziyalı kimi xoşhal olduq. Tərcümeyi-halına gəlincə onu öyrənmək üçün nazirliyin kadrlar şöbəsinə müraciətimiz kifayət etdi.

Əzizli Tahir Yusif oğlu 1957-ci ildə anadan olub. Azərbaycan Dövlət Universitetinin (BDU) şərqşünaslıq fakültəsini bitirib. Müxtəlif məsul vəzifələrdə (şəhər partiya komitəsində təlimatçı, şöbə müdiri, icra hakimiyyətində təlimatçı, ümumi və ictimai-siyasi şöbələrinin müdiri) çalışıb. 2008-ci ilin aprelindən Mingəçevir Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiridir.

**● Y.ARAPLI**